| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 24.01.2014 |
| Qeydiyyat nömrəsi | Q-04 |
| Adı | İcbari Sığorta Bürosuna ödənilməli olan iştirak haqqının və təminat depozitinin məbləğlərinin müəyyən edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 06.02.2014 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.050.030 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201401240004 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 05.02.2014 |

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunun 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.3-cü və 3.1.4-cü bəndlərinin, həmçinin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 14 may tarixli 649-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 04 iyul tarixli 937 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

~~1. İcbari Sığorta Bürosunun iştirakçısı olmaq üçün müraciət etmiş sığortaçının ödəməli olduğu iştirak haqqının məbləği 200.000 (iki yüz min) manat müəyyən edilsin.~~[1]

~~2. İcbari Sığorta Bürosunun iştirakçısı olmaq istəyən sığortaçının Büroya birdəfəlik olaraq ödəməli olduğu təminat depozitinin məbləği müvafiq icbari sığorta növləri üzrə aşağıdakı kimi müəyyən edilsin:~~

~~2.1. Daşınmaz əmlakın icbari sığortası üzrə – 100.000 (yüz min) manat;~~

~~2.2. Daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 100.000 (yüz min) manat;~~

~~2.3. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə – 200.000 (iki yüz min) manat;~~

~~2.4. Sərnişinlərin icbari sığortası üzrə – 200.000 (iki yüz min) manat;~~

~~2.5. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə – 100.000 (yüz min) manat.~~

3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqindən irəli gələn bəzi məsələlərin həll edilməsi haqqında 2011-ci il 14 oktyabr tarixli Q-11 nömrəli Kollegiya Qərarı ləğv edilsin.

4. Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinə və Dövlət Sığorta Nəzarəti Xidmətinə tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının**
**Maliyyə naziri** **Samir Şərifov**

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. **29 dekabr 2017-ci il tarixli Q-16 nömrəli** Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201712290016, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 4 yanvar 2018-ci il**)

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] **29 dekabr 2017-ci il tarixli Q-16 nömrəli** Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201712290016, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 4 yanvar 2018-ci il**) ilə 1-ci və 2-ci hissələr ləğv edilmişdir.